# Gültəkin Novruzova: "Biz həmişə qardaşımıza həsəd aparırdıq ki, anamla premyeralara gedir"

## Atam bizdə incəsənətə maraq yaranmasın deyə uşaq olanda təkcə qardaşımı özü ilə tamaşalara, ya da məşqlərə aparırdı

*2006-cı ilin mart ayının 8-də bütün dünya Beynəlxalq Qadınlar Gününü, yəni Qadınlar Bayramını qeyd etsə də bizim üçün- Əliabbas Qədirovun sonbeşik tələbələri üçün matəm idi. Səhnənin sol küncündə bir-birimizə qısılmışdıq, qızlarımız bərkdən, oğlanlarımız isə için-için ağlayırdılar. Axı sənətlə bağlı arzularımıza qaranlıq çökmüş, həmişə arxayınlıqla söykəndiyimiz aktyorluq sənətinin başı qarlı uca zirvəsi 36 il yüzlərlə obraza həyat verdiyi Akademik Milli Dram Teatrının səhnəsinin ortasına qoyulmuş balaca dar tabutda uzanmışdı. Əliabbas müəllim həmişə bizə ehtiyatlı olmağı, sonradan kiminsə yanında gözü-kölgəli olmamaq üçün düzgün yaşamağı tez-tez vurğulayırdı. Çünki özü ömrü boyu belə yaşamışdı. Heç kimdən qorxmadan və çəkinmədən...*

*Böyük sənətkarı 75 illik yubileyi, vəfatının 15-ci ildönümündə qızı Gültəkin Novruzova ilə xatırladıq.*



**- Gültəkin xanım, bu günlərdə rəhmətlik Əliabbas müəllimin 75 illiyini qeyd etdik. Sonuncu dəfə 15 il əvvəl 60 illiyini qeyd etmişdik. Bu həm də onun iştirakı ilə keçən sonuncu ad günü idi, heç 1 ay keçməmiş dünyadan köçdü. Allah rəhmət eləsin! Təbii ki, valideyni itirmək bir övlad üçün faciədir.**

**Xüsusən də, qız övladı ataya daha çox bağlı olur. Özü də Əliabbas Qədirov kimi bir atanı itirmək. Bu 15 ildə daha çox hansı məqamlarda onun yanınızda olmasını arzuladınız? Ümumiyyətlə, həm övladı, həm də siravi bir teatrsevər kimi onun yoxluğunu daha çox nə zaman hiss edirsiz?**

- Söhbətə başlamazdan əvvəl 75 illik yubileyi ərəfəsində onun xatirəsini yad etdiyiniz üçün təşəkkürümü bildirmək istəyirəm. Bəli, fevralın 13-də atamın 75 yaşı tamam oldu. Bu münasibətlə Cəfər Cabbarlı adına Dövlət Teatr Muzeyində Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə onun xatirəsinə həsr edilən yubiley tədbiri oldu. Təbii ki, pandemiya görə, həmin tədbirdə çox az adam iştirak edirdi. Amma yenə də tədbirin təşkilatçılarına ailəmizin adından bir daha minnətdarlığımı bildirirəm. Sualınıza gəldikdə demək istəyirəm ki, mən onun yoxluğunu elə dünyasını dəyişən andan özümə yaxın buraxmıram. Bir an olsun belə yadımdan çıxmır. Gözlərim hələ də hər yerdə onu axtarır. Elə bilirəm ki, yenə də teatrla harasa uzaq ölkəyə uzunmüddətli qastrola gedib, yaxud da hansısa filmin çəkilişi üçün ezamiyyətdədir.

**- Əliabbas Qədirovun tələbələrinin sanki "toxnulmazlıq" statusu vardı. Heç kim bizi incitməzdi, kimsə qiymətimizi kəsməzdi, yaxud başqa qrupun tələbələrinin təqaüdləri kəsilirdi, amma onun qorxusundan bizə kimsə "gözünün üstündə qaşın var" deyə bilməzdi. Akademik Milli Dram Teatrı da sanki atamızın mülkü idi, ürəyimizin istədiyi vaxt girib-çıxırdıq. Bütün tamaşaların məşqlərinə qatılırdıq, bir tamaşanı belə buraxmazdıq, gedib baxırdıq. Bəzən elə premyeralar olurdu ki, xüsusi dəvətli insanlar iştirak edirdilər. Bizim o tamaşalara da girişimiz vardı. Əliabbas müəllimə biz öz aramızda "kişi" deyirdik. O, universitetin həyətinə girən kimi bir-birimizə deyirdik ki, "kişi" gəldi... Bəzən sənətkarın sənəti şəxsiyyəti ilə ziddiyyət təşkil edir. Oynadığı tamaşalardan, çəkildiyi filmlərdən ən ideal kimi tanıdığımız biri ilə şəxsi ünsiyyət yarandıqdan sonra onun ümimiyyətlə adam olmadığının şahidi olursan. Mədəniyyət və İncəsənət Universitetində 2-3 müəllim vardı ki, öz aramızda "kişi" deyirdik. Ona görə də Əliabbas müəllimin yoxluğunu bizə sağ olsunlar, istər universitetdə, istərsə də Azdramada hiss etdirdilər. Maraqlıdır, Əliabbas müəllim ailədə necə idi?**

- Çoxları onun sərt adam olduğunu deyir. Əliabbas müəllim istər müəllim kimi, istərsə də teatrda ona görə sərt idi ki, onun qəbul etmədiyi nüanslar vardı. Ailədə sərt deyildi, amma narahat biri idi. Biz ailədə 2 qız bir oğlan olmuşuq. Onun qardaşıma münasibəti tamam başqa idi. Kimsə deyə bilər ki, İlham tək oğlan, ailənin ilk övladı kimi ərköyün olub, xeyr, əksinə ona qarşı sərt idi. Yəni, onu əsl kişi kimi yetişdirib. Qızlarına münasibətdə çox mehriban idi. Bizə çox mehriban olsa da, hamı kimi biz ondan çəkinirdik, nəsə istəyəndə anamıza deyirdik. Anamız da təbii ki, atamıza deyəndə, həmişə istəyimizi bizim üçün edib. O, bizə heç vaxt əl qaldırmayıb, onun bircə tərs baxmağı kifayət edirdi. Atam bizdə incəsənətə maraq yaranması deyə uşaq olanda təkcə qardaşımı özü ilə tamaşalara, ya da məşqlərə aparırdı. Biz həmişə qardaşımıza həsəd aparırdıq ki, anamla premyeralara gedir, orda məşhur adamları görür, amma biz buna həsrət qalmışıq. Əslində aktyorluğun çox çətin bir sənət olması atamı buna vadar etmişdi. Qadın üçün bu sənətdə olmaq xüsusilə çətindir. Bizim sənət seçməyimizə müdaxilə etməyib, amma müəyyən istiqamət verib. Çətin sənət olduğu üçün o mənim həkim olmağımı da istəmirdi, deyirdi ki, həm Tibb Universitetində oxumaq çox çətindir, həm də həkimlik ağır peşədir. Buna baxmayaraq mən bu sənəti sevdiyimə görə o, bir azyumşaldı və yalnız uşaq həkimi olmağı məsləhət bildi. Şükürlər olsun ki, mən arzuma çatdım həkim oldum, hazırda Tibb Universitetində də dərs deyirəm. Bəli atamın dediyi kimi çox çətin sənətdi. Amma bu dünyada atamın yoxluğu qədər əzablı heç nə yoxdur. Bəzən ağsaqqal sözünə, ata məsləhətinə ehtiyacım olanda onun yoxluğunu bütün acısı ilə hiss edirəm. Misal üçün, övladımın toyunda atamın xeyir dua verməsini istəyərdim.



**- Əliabbas müəllimi yaxından tanıyanlar onun Akademik Milli Dram Teatrına direktor təyin olunmasına razılıq verməsinin səhv addım olduğunu deyir. Sözün düzü, biz tələbələri də onun teatrdakı ağır zəhmətini görüb deyirdik ki, gərək heç direktor olmayaydı...**

- Mən belə düşünmürəm. Demək, onun qismətində Azdrama kimi nəhəng bir teatrın direktoru olmaq varmış ki, oldu. Belə baxanda işlədiyi 5 ildə az iş də görmədi. Atam özü direktor olmaq istəməsəydi, onu kimsə buna məcbuir edə bilməzdi. Əliabbas müəllim həqiqətən Azdramaya Azərbaycan milli teatrının məbədgahı kimi baxırdı. Özünüz də o illərdə hadisələrin içində olduğunuz üçün razılaşarsınız ki, Azdramada məhz atamın direktor olduğu dövrdə teatr mövsümləri məhsuldar keçib. İl ərzində çoxsaylı yeni tamaşalar təhvil verilirdi, əksəriyyəti də tamaşaçılar tərəfindən xoş qarşılanırdı. Atamın vəfatından sonra təəssüflər olsun ki, böyük sənətkarların əksəriyyəti sanki bir-biri ilə əvvəlcədən razılaşıblarmış kimi ardıcıllıqla dünyadan köçdü. Səfurə İbrahimova, Amalya Pənahova, Fuad Poladov, Yaşar Nuri, Səyavuş Aslan, Telman Adıgözəlov, Rəfael Dadaşov, Zərnigar Ağakişiyeva, Ələsgər Məmmədoğlu və kimlər, kimlər... Bunlar elə sənətkarlar idilər ki, tamaşaçı məhz onlara baxmaq üçün teatra gəlirdi. Mən əvvəllər demək olar ki, bütün premyeralara gedirdim. Bəlkə də sözlərimdən aktyorlarımız inciyəcəklər, amma səmimi deyirəm, bu gün məni öz oyunu ilə teatra çəkən aktyor qalmayıb. Yəqin siz də təsdiq edərsiniz ki, atamgil, istər Səməndər Rzayev olsun, Hamlet Xanızadə, Həsənağa Turabov, Amalya Pənahova, Fuad Poladov, Yaşar Nuri özlərindən əvvəlkilərin yerlərini öz gözəl aktyor bacarıqları ilə doldura bildilər. Amma onların yeri bu gün həqiqətən boş qalıb. Mənim damarlarımda atamın qanı axır, bu qan məni teatra çəkir. Əvvəllər internet filan yox idi, amma gözəl bir tamaşa olanda xəbəri Bakıya ildırım sürətilə yayılırdı. Hamı məhz ordakı aktyorların oyununa baxmaq üçün teatra axışırdı. Mən teatrlarımızın o günləri üçün çox darıxmışam.

**(ardı var)**

**İltifat HACIXANOĞLU**

ədalət.- 2021.- 22 aprel.- S.8.